QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ

HACI AĞASƏİD YAQUBOV

# ALLAHIN BƏXŞ ETDİYİ ZƏFƏR





HACI AĞASƏİD YAQUBOV

# ALLAHIN BƏXŞ ETDİYİ

# ZƏFƏR

BAKI-2021

***Bu kitabça Qafqaz Müsəlmanları İdarəsinin Sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətlərinin istəyi və xüsusi tapşırığı əsasında ərsəyə gəlmişdir.***

**Redaktor:**

Hacı Əhliman Rüstəmov

*QMİ-nin Fətva və moizə şöbəsinin müdir müavini,*

*ilahiyyat üzrə araşdırmaçı-yazar*

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi DK-1075/H saylı, 05 noyabr 2021-ci il tarixli məktubu ilə çap olunmasına razılıq verilmişdir

Bakı, «Nurlar» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2021, 52 səh.

© Ə. Rüstəmov, 2021

# MÜNDƏRİCAT

Müəllifdən....................................................................4

Ön söz ..........................................................................7

Allahın bəxş etdiyi zəfər...............................................9

Qarabağ hadisələrinə qısa tarixi baxış ........................32

Onlara ölü deməyin....................................................43

# MÜƏLLİFDƏN

Bu gün cəmiyyətimizdə çoxşaxəli fəaliyyəti ilə mövqe sahibi olan din xadimlərinin yetişməsində Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin böyük zəhməti və mənəvi haqqı vardır. İlk şeyxülislamlıq fəaliyyətinin ateist kommunist rejiminin ən gərgin vaxtlarına düşməsinə baxmayaraq, hörmətli Şeyximiz dini təhsilə dəstək işindən əl çəkməyib, dinşünas və ruhani kimi yetişmək istəyən azərbaycanlı gənclərin yaxın və uzaq müsəlman ölkələrinin ali dini məktəblərində təhsil alması üçün müvafiq səylər göstərib. Öz adımdan deyə bilərəm ki, ali dini təhsil almağımda və bir din xadimi kimi formalaşmağımda Şeyxülislam həzrətlərinin hərtərəfli dəstəyi olub.

Hər bir azərbaycanlıya məlumdur ki, xalqımız XX əsrin 90-cı illərində dövlət müstəqilliyini qanı bahasına əldə etdi, 20 Yanvar hadisəsi kimi dəhşət və faciə yaşadı. Həmin vaxt Azərbaycanda hakimiyyət orqanlarında özbaşınalıq, siyasi xaos və qorxaqlıq hökm sürürdü, belə demək mümkünsə, xalq başsız qalmışdı. 20 Yanvar hadisəsinə ilk olaraq etiraz edən Kremldə Ulu Öndər Heydər Əliyev həzrətləri idisə, Azərbaycanda Ulu Öndərin haqq səsinə səs verən və xalqın önünə keçərək ona mənəvi baxımdan rəhbərlik edən Şeyxülislam Allahşükür Paşazadə həzrətləri oldu. Faciə günlərində Şeyxülislam həzrətlərinin söylədiyi sözlər təcavüzə qarşı üsyan edən xalqın haqq səsiydi və minlərin, milyonların ürəyində özünə yer tapdı. Məlum

faciə nəticəsində 70 illik sovet imperiyasının məcburi boyunduğu altında yaşayan xalqımızın yaddaşında yer alan "həlak" sözü mübarək "şəhid" kəlməsi ilə dəyişdi. Qanlı 20 Yanvar hadisəsindən sonra faciə qurbanları cənazələrinin Şəhidlər Xiyabanında (o zamankı Dağüstü Pakda) şəriət qaydalarına uyğun dəfn olunması da Şeyxülislam həzrətlərinin qətiyyəti sayəsində baş tutdu. Sonralar müxtəlif tribunalarda etdiyi çıxışları zamanı 20 Yanvar faciəsini xeyirlə şərin, azadlıqla əsarətin, məhəbbətlə nifrətin əbədi mübarizəsinin misilsiz nümunəsi adlandıran Şeyxülislam Allahşükür Paşazadə həzrətləri insan əxlaqının ən gözəl nümunəsi olan şəhadəti ülvilik rəmzi kimi qiymətləndirir, şəhidlərimizin hər cür çətinliyə, məhrumiyyətə, hətta gülləyə və tanka sinə gərərək ölmədiyini, məğlub olmadığını və qalib gəldiyini deyirdi.

Bəli, Şeyxülislam həzrətləri belə bir şəxsiyyətdir, hər zaman Allaha və dininə bağlı olan, millətinə və xalqına arxalanan, vətənini və dövlətini sevən, habelə İslamın şəhidlik fəlsəfəsinə dərindən bələd olan müdrik din xadimidir. Buna görə də, biz ruhanilər möhtərəm Şeyximizin xalqımız, vətənimiz, dövlət və dövlətçiliyimiz, o cümlədən müqəddəs dinimiz qarşısında göstərdiyi xidmətləri özümüzə nümunə götürməli, əməli fəaliyyətimizdə gerçəkləşdirməliyik. Elə əlinizə aldığınız bu əsər də Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətlərinin tapşırıq və tövsiyələrindən irəli gələn fikirlərin qısa xülasəsidir və 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların əziz ruhuna ithaf olunub.

*20 Yanvar şəhidlərinin ziyarəti*



*Azad olunmuş torpaqlarımızda məscid ziyarəti*



## ÖN SÖZ

Müqəddəs dinimiz İslamda vətənpərvərlik və həmrəyliyin xüsusi yeri vardır. Bəşərin əxlaqi kamilliyini tamamlamaq üçün Allah-Təala tərəfindən Yer üzünə göndərilmiş Həzrət Peyğəmbər (s) mübarək hədislərinin birində *"Bir gün vətənin keşiyində durmaq bir ayın orucundan və gecə ibadətindən üstündür"*, – deyə buyurmaqla vətənpərvərliyin, vətənə xidmətin müsəlman əxlaqında oynadığı rolu və daşıdığı dəyəri bildirir.

Dinindən, irqindən və sosial mənşəyindən asılı olmayaraq təmsil etdiyi xalqın çətin məqamlarında, taleyüklü anlarında milli birlik və həmrəylik göstərmək məhz müsəlman əxlaqından irəli gələn vəzifələrdir. Əhalisinin böyük hissəsini müsəlmanlar təşkil edən Azərbaycan xalqı da İkinci Vətən müharibəsində dünya xalqlarına əxlaq nümunəsi ola biləcək addım atdı.

Vətəndaşlarımız müqəddəs dinimizin tövsiyələrini əsas tutaraq min illərdən bəri xalqımızın tarixindən süzülüb gələn vətənə, torpağa, dövlətə və dövlətçilik ənənələrinə bağlılığa sadiqlik göstərərək Ali Baş Komandan Cənab İlham Əliyevin ətrafında sıx birləşdilər, rəşadətli ordumuza dayaq oldular. Bu birlik nə-

ticəsində, eləcə də Ali Baş Komandanın hərbi-diplomatik bacarıqları və liderlik qabiliyyəti sayəsində Ermənistan ordusu darmadağın edildi, torpaqlarımızdan qovuldu. Əsgər və zabitlərimiz qəddar və qaniçən erməni faşistlərini dizi üstə çökdürdü.

Cəsur döyüşçülərimizin mənfur düşmənin üzərinə qartal kimi şığıması, İlahi nemət olan şəhadəti özlərinə amal bilməsi doğma vətənimizə sevginin nümunəsi olmaqla yanaşı, bu sevgini doğuran və yaşadan imanın da təzahürü idi. Necə ki, Allah Rəsulunun (s) kəlamlarının birində – *"Vətəni sevmək imandandır"* – deyə buyurulmuşdur. Vətən, torpaq, xalq yolunda candan keçmək isə Uca Allaha olan xalis imandan irəli gəlir. Bu mənada, Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşı, islamşünas Ağasəid Yaqubov qələmə aldığı **"Allahın bəxş etdiyi zəfər"** adlı kiçik əsərində xalqımızın İkinci Vətən müharibəsi kimi böyük savaşından bəhs etmiş, bu haqq savaşda qazandığımız qələbəni İlahi dərgahla bağlayan məqamlara aydınlıq gətirməyə çalışmışdır.

Hesab edirik ki, əsər yaşından asılı olmayaraq hər bir oxucu üçün sevimli kitabçaya çevriləcəkdir.

*İbrahim Quliyev*
*Azərbaycan İlahiyyat İnstitutunun müəllimi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

# ALLAHIN BƏXŞ ETDİYİ ZƏFƏR

***Bağışlayan və Mehriban Allahın adıyla!***

**“**(Ya Peyğəmbər!) **Həqiqətən, Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik!”** (“əl-Fəth”, 1)

Füsunkar və ecazkar təbiəti ilə göz oxşayan Qarabağ vətənimizin dilbər guşəsi, doğma diyarımızdır. Onun hər qarışı bizim üçün əzizdir, qiymətlidir. Böyük Qələbəyə qədər Azərbaycan dövləti müstəqil olsa da, ərazi baxımından tam deyildi. Bu gün isə dövlətimiz tam müstəqildir. Çünki qədim və tarixi diyarımız olan Qarabağımız azaddır, onu bizdən zorla qoparan düşmən torpaqlarımızdan qovulub, haqq-ədalət öz yerini tapıb.

Azərbaycan xalqının hərb tarixində mühüm yer tutan İkinci Qarabağ savaşı 2020-ci ilin sentyabrın 27-si səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlar törədərək ordumuzun mövqelərini, habelə respublikamızın yaşayış məntəqələrini ağır artilleriya, raket qurğuları və müxtəlif çaplı silahlardan istifadə etməklə intensiv atəşə tutması ilə başladı. Nəticədə ölkənin mülki əhalisi arasında həlak olanlar, yaralananlar oldu, infrastruktur obyektlərinə ciddi ziyan dəydi.

Xatırladaq ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri yarandıqdan və formalaşdıqdan sonra Respublika Prezidenti İlham Əliyev işğal altında olan torpaqlarımızı müharibə və güc yolu ilə azad etməyə dövlətimizin və xalqımızın hər an hazır olduğunu dəfələrlə bəyan edirdi.

Eyni zamanda, Dövlət başçımız hər vəchlə çalışırdı ki, Qarabağ məsələsi danışıqlar masası arxasında və sülh yolu ilə həll olunsun. Bunu hər şeyi əvvəlcədən düşünüb hesaba alan Ali Baş Komandanın *"nəyi nə vaxt və necə etməyi yaxşı bilirəm"* deməsi də təsdiq edirdi. Lakin erməni yaraqlıları hələ savaşdan iki ay əvvəl Ermənistanla dövlət sərhədimizin Tovuz rayonu istiqamətində silahlı qüvvələrimizin mövqelərini və mülki obyektlərimizi atəşə tutaraq təxribata əl atmışdılar. Bu təxribat ölkəmizin Qərb sərhədlərinə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinə, habelə Qazax-Bakı avtomagistralına ciddi təhdid sayılırdı və döyüşü, müharibəni qaçılmaz edirdi.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev 30 il erməni vəhşiliyinə, erməni təxribatına dözən xalqımızın səbrinin tükəndiyini nəzərə alaraq və intiqam istəyini reallaşdıraraq işğal olunmuş torpaqlarımızın azadlığı naminə "Dəmir Yumruq" əməliyyatına start verdi. Düşmənin fitnə ordusunun qarşısını almaq, mülki əhalimizin





təhlükəsizliyini təmin etmək məqsədilə Xilaskar Ordumuz elə sentyabrın 27-də bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatına başladı.

Azərbaycan Silahlı Qüvvələrinə aid şəxsi heyət raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Rəşadətli Ordumuz Ermənistan silahlı qüvvələrinin vətən topaqlarımızda – ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsini, hərbi obyektini və döyüş texnikasını aşkar edərək məhv etdi.

Azərbaycan Ordusu döyüşlərdə az itki ilə böyük irəliləyişə imza atdı. İkinci Vətən müharibəsi adını alan və 44 gün davam edən bu savaşda haqlı olduğumuza Özü şahid olduğu üçün Allah-Təala xalqımızın müharibə əzminə güc qatdı, iradəsini möhkəmləndirdi. Çünki bu, Uca Yaradanın haqq və ədalət, torpaq və vətən, namus və qeyrət, İlahi və müqəddəs amallar naminə buyruqlarını canlandıran müharibə idi. Xalqımız da bu savaşa qədərki illər ərzində Uca Yaradanın bizə bəxş etdiyi torpaqların bir gün Onun tərəfindən öz həqiqi sahibinə qaytarılacağına ümidini itirmədi, torpaqlarımızı geri qaytarmaq naminə hər gün mübarizə mövqeyində oldu və son mübarizəsini bu savaşda gerçəkləşdirdi.

Qadir Allah Qurani-Kərimin “Fəth” surəsinin 1-ci ayəsində belə buyurur:

“(Ya Peyğəmbər!) **Həqiqətən, Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik!”**

Mübarək ayənin şərhinə əsasən bütün dövrlərdə haqqın zəfər çalması Allah-Təalanın inanclı insanlara bəxş etdiyi bir nemətidir.

Qeyd edək ki, “Fəth” surəsinin bu ayəsi İslamın ilk vaxtlarında müsəlmanlarla müşriklər arasında bağlanan məşhur Hüdeybiyyə sülhü barəsindədir. Həmin dövrdə müşriklər Həzrət Peyğəmbərə (s) Ümrə ziyarətini, yəni Məkkədə kiçik həcci yerinə yetirməyə imkan verməmişdilər. Bunun üzərinə o Həzrət (s) onlarla sülh müqaviləsi bağlamağı qərara almış, həmin müqaviləyə əsasən hər iki tərəf on il müddətinə bir-biri ilə döyüşməmək və sözügedən ziyarətin növbəti ildə gerçəkləşməsi barədə razılaşmışdılar. Başlıcası isə əhali içərisindən hər bir şəxs maneəsiz və sərbəst olaraq müşriklərin tərəfinə keçməyə və ya İslamı qəbul etməyə imkan əldə etmişdi.

Hüdeybiyyə müqaviləsindən sonra müsəlmanlar və müşriklər bir-birindən ehtiyat etmirdilər. Nəticədə Qadir Allahın dininin sürətlə yayılması üçün münasib zəmin yarandı. Möminlər ələ düşən hər bir imkandan insanlara İslamın mahiyyətini izah etmək məqsədi ilə istifadə etməyə başladılar və haqqın batil üzərində mənəvi qələbəsinə nail oldular. Məhz Allah-Təalanın bəxş etdiyi belə qələbələr sayəsində müsəlmanlar

o dövrdə düşməndən amanda qalaraq sülh və əmin-amanlıq şəraitində yaşadılar.

Müsəlman aləminin bir parçası olan xalqımız da İkinci Vətən müharibəsində eyni ilə İlahi qüdrətin sayəsində qalib gəldi. Düşmən Allah-Təalanın inayəti ilə bizimlə sülhə imza atmağa məcbur oldu. Xalqımız tərəfindən haqq olan bu müharibədə İlahi ədalətin baş verməsi isə təbii və şübhəsiz idi. Axı, haqq işi, haqq mübarizəsi olan yerdə İlahi qanunların özünü büruzə verməsi mütləqdir. Əgər İlahi ədalət baş verməsəydi, onda gələcəkdə bizi nəyin gözlədiyini düşünmək, Allah göstərməsin, çətin olardı. Lakin həmd olsun Allaha ki, daim haqqın, haqlının və haqqı tapdalananların yanındadır. Bu mənada, Uca Yaradan haqlı mübarizəmizdə bizimlə oldu, bizə Qarabağ zəfərini nəsib etdi və bu böyük hadisəni, möcüzəvi qələbəni Allah-Təalaya nisbət verib İlahi zəfər kimi dəyərləndirmək olar.

İkinci Qarabağ savaşı müsəlman təqvimi ilə Hicri-qəməri ilinin səfər ayına təsadüf etdi. Bu ay Qurani-Kərimdə “Haram aylar” kimi bilinən aylardan deyildi. Yəni, bu ayda haqq yolunda vuruşmağa dini baxımdan heç bir qadağa yox idi. Əlbəttə, sülh və əmin-amanlıq dini olan İslam heç də ilk olaraq hərb etməyi təlqin etmir. Çünki müharibə fəlakət və dəhşətdir, onu arzulamaq insanların qırılması, gənc nəslin itirilməsi deməkdir. Ancaq kənardan müharibə

təhlükəsi yaranarsa, ata-baba ocağı düşmən tapdağı altında qalarsa, yaşayış yerləri və mülki obyektləri dağıdılarsa, milli-mədəni və tarixi-dini abidələri talan edilərsə, nəhayət həmvətənləri qətl edilib torpaqları işğal olunarsa, müsəlmanlar özünümüdafiə məqsədilə nəinki digər, hətta haram aylarda belə, düşmənlə döyüşə qatıla bilərlər. Necə ki, müqəddəs Qurani-Kərimin "Tövbə" surəsinin 36-cı ayəsində buyurulur:

**"Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın Kitabında on ikidir. Onların dördü** (rəcəb, zülqədə, zülhiccə və məhərrəm) **haram aylardır. Bu, doğru dindir** (İbrahim və İsmailin gətirdikləri dinin doğru hesabı və hökmüdür)**. Ona görə də həmin aylarda özünüzə zülm etməyin. Müşriklərin hamısı sizinlə vuruşduqları kimi, siz də onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir!"**

Mübarək ayədə buyurulduğu kimi, düşmən hamılıqla bizimlə vuruşa, savaşa başlamışdı və biz düşmənə onun başa düşəcəyi dillə, onun başladığı formada cavab verməк məcburiyyətində idik.

Digər tərəfdən, ortada haqq işi, vətən təəssübü, torpaq, namus və qeyrət uğrunda mübarizə varsa, müharibəyə getmək vacibdir. Bu cür amilləri dərk edənlər haqq-ədalət uğrunda mübarizədə fədakarlıq göstərənlərin qalib gələcəyinə də əmin olurlar. Bu

baxımdan, Uca Yaradan “Bəqərə” surəsinin 216-cı ayəsində belə buyurur:

**“**(Allahın düşmənlərinə qarşı) **Döyüş** (cihad) **xoşunuza gəlmədiyi halda, sizə vacib edildi. Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər.** (Onu) **Allah bilir, siz bilməzsiniz”**.

Həmin surənin 191-ci ayəsində isə buyurulur ki:

**“...Sizi çıxartdıqları yerdən** (Məkkədən) **siz də onları çıxardın. Fitnə** (müşriklərin fitnəsi) **qətldən daha şiddətlidir...”**.

İslamın ilkin çağlarında müsəlmanlara qarşı zülm etmiş, onları yurd-yuvalarından didərgin salmış müşriklər barəsində Uca Rəbbimizin bu ayə vasitəsilə buyurduqları erməni qəsbkarlarına da aid idi. Ermənilər böyük hissəsi müsəlmanlardan ibarət olan xalqımıza qarşı bənzər cinayət işləmiş, bizi öz torpaqlarımızda qaçqın və məcburi köçkün həyatı yaşamağa vadar etmiş, xalqımızla yanaşı, tarixi və dini abidələrimizə qarşı soyqırımı törətmişdilər.

Qarabağ torpaqları Azərbaycanın müsəlman əhalisinin əzəli haqqıdır. Bu torpaqlarda yaşayan xalqımız müqəddəs dinimizin ehkamlarını hər zaman uca tutmuş, ateist sovet rejimi dövründə belə, Allah-Təalaya itaət və ibadətdən əl çəkməmişdir. Keçən əsrin əvvəllərinə qədər bu torpaqlarda Allah evləri - məs-

cidlər və həmin məscidlərin tədris mərkəzləri hesab olunan mədrəsələr olmuşdur. Tarixdə Qarabaği və digər adlarla tanınan məşhur alimlərimiz nəinki bu mədrəsələrdə dərs demiş, xalqımızın elmi-mənəvi ehtiyacının təmin edilməsinə çalışmış, eləcə də İslam aləminin böyük elmi-dini mərkəzlərinin təşəkkül tapması və fəaliyyət göstərməsində layiqli xidmətlər göstərmişlər. Qeyd etmək yerinə düşər ki, onların ərsəyə gətirdiyi mötəbər elmi əsərlərdən günümüzdə də etibarlı mənbə kimi istifadə olunmaqdadır. Bütün bunlar onu deməyə əsas verir ki, bu cür dahi alimlər və tarixi şəxsiyyətlər yetirən Qarabağ torpağının tarixi-dini abidələrinin kökü də keçmişə gedib çıxır. Bu, məsələnin bir tərəfi...

Məsələnin digər tərəfi ondan ibarətdir ki, Allah-Təalaya ibadət edilən bütün məscid və kilsələr müqəddəsdir, onlara Allaha xatir və Allaha layiq ehtiram olunmalıdır. Lakin erməni faşistləri işğal dövründə dini abidə və məbədlərimizi dağıtmış, müqəddəs hesab edilən məkanlarımızı tövlələrə çevirmiş, məscidlərimizin içərisində ev heyvanları, o cümlədən İslam şəriəti baxımından əti haram və napak sayılan donuz saxlamaqla ibadət ocaqlarımıza hörmətsizlik etmiş və azərbaycanlılara qarşı nifrətlərini nümayiş etdirmişlər. Əbəs yerə deyil ki, Dövlət başçımız xalqımıza, eləcə də dünya ictimaiyyətinə erməni vandalizmindən da-

nışarkən çıxışlarının birində bu məsələyə toxunmuş, *“Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur”* – deyə hiddət və qəzəbini bildirmişdir.

Azərbaycanın qədim və gözəl şəhərlərindən olan Şuşa tarixi-dini abidələri, memarlıq nümunələri ilə zəngindir. Lakin təcavüzkar Ermənistan rəhbərliyi işğal dövründə daha bir təxribata əl atmış, şəhərin iki tarixi Cümə məscidinin birində - Yuxarı Gövhər ağa məscidində “bərpa” işləri adı altında abidənin tarixini saxtalaşdırmaqla məşğul olmuşdur. Belə ki, məscidin üzərində yerləşən və Azərbaycan dilində yazılan lövhə ermənilər tərəfindən sökülmüş, əvəzində erməni dilində “Tarixi-mədəni abidə, Yuxarı məscid, 1883, dövlət tərəfindən qorunur” sözlərini əks etdirən lövhə vurulmuş, məscidin xarici və daxili görünüşündə dəyişikliklər edilmişdir. Bundan əlavə, Ermənistan rəhbərliyi xalqımıza məxsus bu tarixi tikilinin fars məscidi olmasını iddia etmiş, bununla da iki qonşu və dost xalqı bir-birinə qarşı qoymaq istəmişdir.

Şuşanın işğalı zamanı binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi şəkildə zədə alan, daxili və xarici divarında yazıları pozulan, interyerinə erməni və rus dillərində azərbaycanlılara qarşı təhqiramiz ifadələr yazılan Aşağı Gövhər ağa məscidi isə tarixi qələbimizə qədər düçar olduğu bərbad və acınacaqlı vəziyyətdə qalmışdır.

## *Aşağı Gövhər ağa məscidi*





## *Ağdam məscidi*



Erməni vandalizmi yalnız müsəlman abidələrinə deyil, xristian tarixi-dini abidələrinə münasibətdə də özünü göstərmişdir. Kəlbəcər rayonunda yerləşən Xudavəng və Gəncəsər monastırları ilə yanaşı Qafqaz Albaniyasına aid bir çox məbədin ermənilər tərəfindən mənimsənilərək saxtakarlığa məruz qalması buna əyani nümunədir. Nəticədə Xudavəng monastırına aid Arzu xatun kilsəsinin şərq divarında yerləşən və monastırın incisi hesab olunan freska xüsusi üsullarla kəsilərək götürülmüş, Gəncəsər monastırında aparılmış qanunsuz təmir işləri hesabına isə onun orijinal görkəminə ciddi zərər dəymişdir.

Göründüyü kimi, ermənilər özlərini xristian dininin mənsubları hesab etsələr də, hətta bu dinin özünə belə hörmət etməmişlər. Axı xristianlıqda da Allaha məxsus ibadət yerlərinin dağıdılması və ya təhqir olunması yolverilməzdir. Bu cür hərəkətlər erməni vandallarının nə qədər vəhşi, insanlıqdan uzaq və şeytan xislətli olduğunu əks etdirən tutarlı faktlardır. Bu mənada, İkinci Qarabağ savaşı insanlıqla Şeytanın mübarizəsi idi desək, heç də yanılmarıq.

Allah-Təalanın buyruqlarına qarşı çıxan, Onun yer üzündəki evləri sayılan məscidləri dağıdan, yaratdığı günahsız bəndələri heç bir səbəb olmadan öldürən Allahın dostu ola bilməz. Digər tərəfdən, ruhunda mərhəmət və itaət hissi olmayan Şeytandır.

Erməni faşistləri xalqımıza qarşı bəslədikləri kin və düşmənçiliklə, çirkin niyyət və xain əməllərlə sübut etdilər ki, asi olduğu üçün Uca Allahın dərgahından qovulan Şeytandan heç nə ilə fərqlənmirlər.

Düşmənçilik etmək, nifaq və qarışıqlıq salmaq Şeytanın xisləti, Şeytanın işidir. Allah-Təala Şeytan barəsində Qurani-Kərimin "Fatir" surəsinin 6-cı ayəsində belə buyurur:

**"Həqiqətən, Şeytan sizin düşməninizdir, onu** (özünüzə) **düşmən tutun. O özünə uyanları cəhənnəm əhli olmağa çağırır"**.

Bu baxımdan, son bir əsrdə cinayətkar erməni quldurlarının xalqımıza qarşı etdikləri Şeytanın insanlığa qarşı düşmənçiliyinə bənzəyir. Onlar həm yaradılmışın əşrəfi sayılan insanı xəlq edən Allahın, həm də bəşərin bir qismi sayılan xalqımıza qənim kəsilməklə insanlığın düşmənidir. Xoş halımıza ki, biz Allah-Təalaya qəlbən bağlı olanlardanıq və bu bağlılıqla Onun dostlarındanıq. Bilinən odur ki, tarix boyu Allah dostları sıxışsa da, darda qalmayıb və biz bu həqiqəti işğal altında olan torpaqlarımızın, məxsusən qədim şəhərlərimizdən olan Şuşamızın azad edilməsi zamanı gördük.

Özü-özlüyündə alınmaz qala olan Şuşanı düşmən daha da alınmaz etmiş, şəhərə böyük hərbi birləşmə və ağır texnika yerləşdirərək orada möhkəm istehkamlar qurmuşdu.

Lakin Müzəffər Azərbaycan Ordusu az sayda dəstə ilə keçilməsi qeyri-mümükün olan sıldırım qayaları aşaraq əlbəyaxa döyüş vəziyyətində Qarabağımızın incisi sayılan Şuşaya daxil olmağı bacardı və şəhəri düşməndən azad etdi. Bu, tarixi ədalətin təcəllisi olmaqla yanaşı, İlahi bir möcüzə idi. Çünki Uca Rəbbimiz Qurani-Kərimdə vəd edir ki, haqq-ədalət naminə mübarizədə çıxılmaz durumda, çətinlikdə olanlara yalnız həqiqi qüdrət sahibi olan Allah kömək edir. Məsələn, "Ali-İmran" surəsinin 13-cü ayəsində buyurulur ki:

**"İki dəstənin** (Bədr müharibəsi zamanı) **qarşı-qarşıya durması sizin üçün** (Peyğəmbərin doğruluğuna) **dəlildir. Bunlardan biri Allah yolunda vuruşanlar, digəri isə kafirlər idi** (Möminlər üç yüz on üç nəfər, kafirlər isə təqribən min nəfər idilər)**.** (Möminlər kafirlərin) **Onlardan ikiqat artıq olduqlarını öz gözləri ilə görürdülər** (Yaxud kafirlər möminləri iki özləri qədər, yəni təxminən iki min nəfər və ya onların olduqlarından iki dəfə artıq, yəni altı yüzdən bir qədər çox görürdülər)**. Əlbəttə, Allah istədiyinə Öz köməyi ilə qüvvət verər..."**.

Bilirsiniz ki, Həzrət Muhəmməd (s) Məkkədən Mədinəyə hicrət (köç) etdikdən sonra İslam tarixində ilk müharibə olan Bədr döyüşü baş verdi.




QARABAĞ
AZƏRBAYCANDIR!

Məkkə müşrikləri 950 nəfərdən ibarət qoşunla Mədinə şəhəri istiqamətində Bədr məntəqəsinə doğru yola çıxdılar və orada müsəlmanlarla vuruşdular. Mübarək ayədə bəyan olunduğu kimi, say baxımından qeyri-bərabər olduğuna görə müsəlmanlar üçün çətin olan bu döyüşdə Qadir Allah onların köməyinə mələklərindən ibarət ordu göndərməklə müsəlmanlara açıq-aşkar dəstək verdi və onlar qalib gəldilər. Bu zəfər Quran-i-Kərimin digər bir ayəsində - "Ali-İmran" surəsinin 123-cü ayəsində belə keçməkdədir:

**"**(Ya Rəsulum!) **Həqiqətən, siz Bədrdə** (düşmənə nisbətən az və) **zəif olduğunuz halda, Allah sizə yardım etdi..."**.

Heyrət doğuran budur ki, qüdrət və əzəmət sahibi olan Allah, üzərindən min ildən çox vaxt ötməsinə baxmayaraq, Bədr savaşında sevimli bəndələrinə etdiyi yardımın bənzərini Qarabağ savaşında *"Allah, Muhəmməd, ya Əli! Kimdir axı erməni?!"* şüarı səsləndirən ordumuza da etdi. Uca Yaradan əsgər və zabitlərimizin ruhuna Bədrin qələbəsinə bənzər zəfər ruhu qatdı. Yağı düşmən – erməni yaraqlıları Məkkə müşrikləri kimi məğlubiyyətinin səbəb və hikmətini anlaya bilmədi. Xalqımız isə bu qələbəni Uca Rəbbimizin bizə olan lütfü, inayəti kimi qiymətləndirdi.

Qarabağ torpaqlarının və ətraf rayonların işğaldan azad olunması, eyni zamanda xeyir və şərin mübarizəsi demək idi. Vaxtı ilə Ümumilli lider Heydər Əliyevin Məkkədə – Allah Evində etdiyi dualar, sonralar Ulu öndərin

siyasi kursunun layiqli davamçısı İlham Əliyevin ailəsi ilə birgə Müqəddəs torpaqları ziyarəti zamanı duaları baş tutdu, xeyir şərə qalib gəldi, zəfər çaldıq. Xalqımız da bu zəfərin Allahdan olduğuna tam şəkildə əmin oldu. Axı Allah-Təala Qurani-Kərimin "Nəsr" surəsində buyurur ki:

**"**(Ya Peyğəmbər!) **Allahın köməyi və fəth** (zəfəri) **gəldiyi zaman"**;

**"İnsanların dəstə-dəstə Allahın dininə girdiklərini gördüyün zaman"**;

**"Rəbbinə həmd edərək Onu təsbih et və Ondan məğfirət dilə! Şübhəsiz ki, O, tövbələri qəbul edəndir"**.

İkinci Vətən müharibəsi xalqımızın sarsılmaz birliyinin, analarımızın gecə-gündüz sızıltılı qəlblə Uca Rəbbimizin ərşini silkələyən dualarının nümayişi idi. Allah-Təala isə çətin və sıxıntılı məqamlarda sevdiyi bəndələrinin dualarını qəbul edəndir. Necə ki, "Ali-İmran" surəsinin 195-ci ayəsində buyurulur:

**"Rəbbi də onların dualarını qəbul edərək cavab verdi: "İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz** (hamınız) **bir-birinizdənsiniz** (dində kişi, qadın eynidir). **Hicrət edənlərin öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq, əlbəttə, örtəcək və onları** (ağacları) **altından çaylar axan cənnətlərə daxil edəcəyəm. Ən yaxşı mükafat Allah yanındadır!"**





Bəli, erməni faşistləri tərəfindən yurd-yuvasından didərgin düşənlərimiz 30 il idi ki, isti ocaqlarına qayıtmaq üçün Uca Yaradana dualar edirdilər. Xalqımız 30 il idi ki, torpaqlarımızın azadlığı diləyi ilə Qadir Allaha həmd-səna edirdi. Nəhayət ki, dualarımız qəbula yetdi, qədim və əzəli yurdumuz Qarabağ yağı düşməndən xilas oldu.

Allahın təyin etdiyi qayda-qanunlar üçün zaman və məkan məhdudiyyəti yoxdur. İlahi ədalət tələb edir ki, min illər öncə olan hadisələrin oxşarı günümüzdə baş verən zaman eyni yanaşma olsun. Bu mənada, vətənimizin bir hissəsini zəbt edən, qadın, uşaq, yaşlı və xəstə bilmədən heç kimə aman verməyən, əliyalın, dinc sakinlərimizi vəhşicəsinə qətlə yetirən, xüsusilə torpaqlarımıza müqəddəslik ətri verən Allah evlərini dağıdan düşmən xislətcə min illər öncə belə hərəkətləri edən düşmənlə eynidir. Gəlin, İslam tarixindən əvvəl baş vermiş bir hadisəyə nəzər salıb həmin dövrə qısa səyahət edək.

Bilirsiniz ki, Həbəş padşahının Yəmən valisi olan Əbrəhə insanların ibadət məqsədilə Kəbəyə üz tutmasına qısqanclıqla yanaşıb və bu üzdən fillərdən ibarət böyük bir ordu ilə Allah evini dağıtmaq istəyib. Allah-Təala bu hadisə barəsində Qurani-Kərimin “Fil” surəsində belə buyurur:

“(Ya Peyğəmbər!) **Məgər Rəbbinin fil sahiblərinə** (Kəbəni dağıtmaq üçün fillərlə Məkkənin üstünə gələn həbəş ordusuna) **nələr etdiyini görmədinmi?! Məgər** (Rəbbin) **onların hiyləsini boşa çıxartmadımı?! Onların üstünə qatar-qatar quş-lar** (əbabil quşları) **göndərdi.** (O quşlar) **onlara bişmiş gildən düzəlmiş** (möhkəm xırda) **daşlar atırdı.** (Rəbbin) **onları** (həşərat tərəfindən) **yeyilmiş əkin yarpağına** (saman çöpünə) **döndərdi!”**

Lakin çox keçmir ki, heç kimin cəsarət tapıb qarşısına çıxa bilmədiyi Əbrəhə və ordusu həqiqi qüvvət sahibi olan Allahdan güc alanların qarşısında yerlə yeksan olur. Beləliklə, İlahi ədalət baş verir, Hicaz torpağına zinət verən müqəddəs Kəbə Allahın dəvətinə qarşı üsyan edən küfr ordusu tərəfindən dağılmaqdan xilas olur. İkinci Qarabağ müharibəsində də oxşar hadisənin şahidi olduq.

Əbrəhənin fil qoşununa bənzər mənfur düşmən ordusu 30 il ərzində əzəli torpaqlarımızda möhkəm istehkamlar qurdu, fil ağırlığından ağır silahlarla təhciz olundu. Ermənistan ordusu bu illər ərzində Kəbə evini simvolizə edən məscidlərimizə qarşı təhqiramiz hərəkətlər etdi, xalqımızın ibadət qoxulu yurd-yuvasını xarabalığa çevirdi, sonda isə Allah-Təalanın qəzəbinə tuş gəldi. Beləliklə, müasir silahlara, xüsusilə pilotsuz uçan aparatlara (PUA) sahib olan

Azərbaycan Ordusu düşməni darmadağın etdi. İkinci Vətən savaşında torpaqlarımızın azadlığı üçün əvəzsiz döyüş silahına çevrilən PUA-lar İslamdan öncə baş verən "Fil" hadisəsindəki əbabil quşlarını xatırlatdı. Azərbaycan Ordusu Uca Yaradanın inayəti, Ali Baş Komandan İlham Əliyevin uğurlu hərbi strategiyası sayəsində 44 gün ərzində torpaqlarımızı azad edib Ermənistan ordusunu məhv etdi, necə ki, əbabil quşlarından ibarət Allah ordusu Əbrəhənin fil qoşununu məhv etmişdi. Bəli, ordumuz düşməni torpaqlarımızdan qovdu, torpaqlarımızla yanaşı, məscidlərimizi - bütün müsəlmanların Allah qarşısında səcdə məkanı olan məbədləri əsirlikdən azad etdi. Azad olan məscidlərimizdə ilk azanı verən və ilk namazı qılan da igid əsgərlərimiz oldu.

Xalqımız cəsur övladlarının - əsgər və zabitlərinin sayəsində qələbə qazanaraq qisasını aldı, qəlbində daş bağlamış qəhərini və məğlubiyyət acısını ata bildi. Allah-Təala Qurani-Kərimin "Saff" surəsinin 4-cü ayəsində buyurur ki:

**"Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər!"**

Cəsur döyüşçülərimiz Ali Baş Komandan İlham Əliyevin liderlik əzmi, ən yeni döyüş taktikası və İlahi iradə sayəsində qalib oldu. Ali Baş Komandan, ordu və xalq birliyi sarsılmaq bilməyən mənəvi gücü-

müzə çevrildi, zəfər çaldıq, qələbə sevincini yaşadıq. Biz qalib xalqın nümayəndələri kimi Müzəffər Ordumuzun Qələbə paradını seyr edib qürur duyduq. Paradı bizimlə yanaşı, milyonlarla insan izlədi. Həmin gün dünya ölkələrinin nəzəri Azərbaycana - Bakıya dikildi. Təbii ki, gördükləri möhtəşəm mənzərə, qəhrəman əsgər və zabitlərimizin nümunəvi hərbi keçidi, müasir döyüş texnikalarının nümayişi, hərbi təyyarə və helikopterlərin bayram uçuşları dost ölkələrin vətəndaşlarını da qürurlandırdı. Erməni separatizmini dəstəkləyənlərin, işğalçıya arxa duranların isə yəqin ki, ürəklərindən qara qanlar axdı. Bu mənada, İkinci Qarabağ savaşı kimin dost olduğunu, kimin də düşmənə yardım etdiyini ortaya çıxardı. Allah-Təala bu savaş vasitəsilə xalqımıza dostu və düşmənini tanıtdı. Necə ki, Qurani-Kərimin "Mumtəhənə" surəsinin 9-cu ayəsində buyurulur:

**"Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsl zalımlardır!"**


MÜSTƏQİLLİK
TARİXİNİN İLK
ZƏFƏR PARADI
10
DEKABR



## QARABAĞ HADİSƏLƏRİNƏ QISA TARİXİ BAXIŞ

Dövləti, dövlətçiliyi və əzəli yurdu olmayan ermənilər XIX əsrin əvvəllərində Cənubi Qafqaza köç edilərkən tarixi Azərbaycan torpaqlarında – İrəvan xanlığında məskunlaşdırıldılar. Onlar həmin dövrlərdən etibarən xalqımızın mehribanlığından və qonaqpərvərliyindən sui-istifadə etməyə, yeni yerdə sahib olmadıqları ərazilərə göz dikməyə və bu ərazi iddiaları ilə torpaqlarımızı mərhələ-mərhələ zəbt etməyə, nəticədə bizə düşmən kəsilməyə başladılar. Qətiyyətlə deyə bilərik ki, son iki yüz il ərzində ermənilər tərəfindən xalqımızın başına gətirilən bütün bəla və müsibətlər onların iyrənc düşmənçilik siyasəti üzündən baş vermişdir.

Azərbaycana qarşı çirkin niyyətlərindən, qərəzli ərazi iddialarından əl çəkməyən erməni millətçilərinin “Böyük Ermənistan” yaratmaq barədə məkrli planları çarizmdən sonrakı dövrdə - sovetlər dönəmində də davam etdirilirdi və o zaman da Qarabağ məsələsinə yanaşmalar birmənalı deyildi.

XX əsrin əvvəllərində Sovet Rusiyasının birbaşa təşəbbüsü ilə Qərbi Azərbaycan torpaqlarında bünövrəsi olmayan ilk erməni dövləti - Ermənistan Respublikası yaradılandan sonra ermənilər Qarabağ məsələsini


QARABAĞ
Ağdərə
Ağdam
Xocalı
Kəlbəcər
Xankəndi
Xocavənd
Füzuli
Şuşa
Laçın
Cəbrayıl
Qubadlı
Zəngilan


шуша



yenidən ortaya atdılar. Həmin dövrdə Azərbaycana rəhbərlik edən Nəriman Nərimanov sözügedən məsələ ilə əlaqədar erməni şovinistləri ilə gərgin mücadilə aparırdı. 1920-ci ildə ermənilərin Dağlıq Qarabağda keçirdiyi "qurultay"ın qərarının nəticəsiz qalması məhz N. Nərimanovun Ermənistana verdiyi notanın hesabına idi. N. Nərimanov həmin ilin iyulun 10-da Moskvaya "Dağlıq Qarabağda vəziyyət" başlıqlı teleqram vurdu. Teleqram "Müsəlman əhalisi Moskvanın qəflətən köhnə mövqeyə qayıtmasını və ermənipərəst siyasət yürütməsini sovet hökumətinin Azərbaycanın sərhədlərini qorumaq iqtidarında olmaması və xainlik kimi qiymətləndirəcəkdir" sözləri ilə bitirdi.

1921-ci ilin iyunun 12-də Ermənistan hökuməti Dağlıq Qarabağın "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan olunduğu haqqında dekret qəbul etdi. Bir qədər sonra onlar qətnaməni ləğv etmədən Dağlıq Qarabağ və mübahisəli hesab etdikləri digər ərazilər üzrə komissiya yaratmaq təklifini irəli sürdülər. Bu zaman N. Nərimanovun sədrliyi ilə Azərbaycan Xalq Komissarları Sovetinin yeni iclası çağırıldı və A. Myasnikovun (Myasnikyan) Dağlıq Qarabağı "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan edən dekreti rədd edildi. İclasda Azərbaycan XKS-in rəyi olmadan təyin edilmiş A. Mravyanın geri çağırılması məsələsi də ortaya qoyuldu. İki qonşu respublika arasında ixtilaflar artdığından 1921-ci ilin

iyulun 4–5-də Rusiya Kommunist (bolşeviklər) Partiyasının (RK(b)P) Mərkəzi Komitəsinin (MK) Qafqaz bürosunun plenumu məsələni müzakirə etməli oldu. Beləliklə, N. Nərimanovun ciddi müqavimətindən sonra, iyulun 5-də plenumun səhər iclasında Qarabağ məsələsinə yenidən baxıldı. Plenum RK(b)P MK-nın rəyini nəzərə alaraq yeni qərar qəbul etdi. Qərarda deyilirdi: "Müsəlmanlarla ermənilər arasında milli barışığın zəruriliyini, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələri və daim Azərbaycanla sıx əlaqədə olmasını nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-nin hüdudlarında saxlanılsın, muxtar vilayətin tərkibinə daxil olan Şuşa şəhəri inzibati mərkəz olmaqla ona geniş vilayət muxtariyyəti verilsin". Qərarda, həmçinin göstərilirdi ki, Azərbaycan K(b)P MK-ya tapşırılsın ki, muxtar vilayətin sərhəddini, ərazisinin həcmini müəyyən etsin və onu RK(b)P MK Qafqaz bürosunun təsdiqinə təqdim etsin.

Dağlıq Qarabağla yanaşı, həmin dövrdə Azərbaycanın tarixi və ayrılmaz ərazisi hesab olunan Zəngəzur məsələsi də gündəmdə idi. Zəngəzur Azərbaycan torpağı olsa da hələ 1918–1919-cu illərdə silahlı erməni dəstələri azərbaycanlılar yaşayan kəndləri dağıdaraq ərazinin böyük hissəsinə nəzarət edirdilər.

1920-ci ilin 10 avqustunda Rusiya K(b)P-nin Qafqaz bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgə-

sini Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu. 1920-ci ilin noyabrın 30-da qəbul edilən qərarla Zəngəzurun bir hissəsi Azərbaycanda qaldı, digər hissəsi isə Ermənistana verildi. Nəticədə Naxçıvan digər Azərbaycan torpaqlarından ayrı salındı və bu, aparıcı dövlətlərin geosiyasi maraqları ilə üst-üstə düşdü. Axı Zəngəzur Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı, eyni zamanda Türkiyə ilə Azərbaycanı birləşdirən və türk dünyasına açılan pəncərə, yeganə quru ərazi idi. Tarixən Avrasiyada mövcud olan "vahid türk xətti" dünya xəritəsində bir neçə sahədə parçalanmalı idi ki, Zəngəzur da həmin sahələrdən birinə çevrildi.

1933-cü ildə Ermənistan SSR-in ərazisi rayonlara bölündü və Zəngəzur adı xəritədən silindi. Yerində Qafan, Gorus, Qarakilsə (Sisian) və Mehri rayonları yaradıldı. Zəngəzurun Azərbaycanda qalan hissəsində isə Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı.

1988-1989-cu illərdə Zəngəzur da daxil olmaqla Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə – indiki Ermənistan adlanan torpaqlarda yaşayan və təxminən 200000 nəfərdən ibarət olan azərbaycanlı dədə-baba yurdundan deportasiya olundu – qovuldu. Kütləvi deportasiya zamanı ən azı 216 azərbaycanlı öldürüldü, 1154 nəfər isə yaralandı.

20 yanvar 1990-cı ildə Mixail Qorbaçovun və Kremlin o zamankı siyasi rəhbərliyinin razılığı ilə Sovet ordusunun hissələri Bakıya göndərildi. Dağlıq Qarabağ məsələsinin də səbəb olduğu bu qanlı hadisə nəticəsində Azərbaycanda 20 Yanvar faciəsi törədildi, yüzlərlə azərbaycanlı öldürüldü və yaralandı.

1991-ci ildə keçmiş SSRİ-nin mərkəzi hüquq-mühafizə orqanları Dağlıq Qarabağ xaricində fəaliyyət göstərən onlarla erməni silahlı qrupunu həbs etdi. Onlar Azərbaycanın Xanlar rayonunun Çaykənd kəndində özləri üçün mərkəz yaratmışdılar. Buradan yollar, qonşu kəndlər bombardman edilir, top atəşinə tutulur, yerli azərbaycanlı əhali qorxu və vahimə içində saxlanılırdı. Təəssüf hissi ilə bildirirk ki, 1989-cu ildən 1991-ci ilədək Çaykənddə və ətraf ərazilərdə 54 nəfər yerli sakin – dinc azərbaycanlı erməni silahlı qruplarının qurbanına çevrilmişdi.

1992-ci ilin fevral ayında Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın törədildi. Xocalı soyqırımı kimi tanınan bu qanlı faciə minlərlə Xocalı sakininin məhv edilməsi və ya əsir düşməsi ilə nəticələndi, şəhər yerlə-yeksan edildi.

1992-ci ilin may ayında Şuşa və Laçın rayonları, 1993-cü ilin aprel ayında Kəlbəcər, iyul ayında Ağdam rayonu, 1993-cü ilin avqust ayında Füzuli, Cəbrayıl və Qubadlı rayonları, oktyabr ayında isə Zəngilan

rayonu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal olundu.





30 aprel 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 saylı qətnamə, 29 iyul 1993-cü ildə Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı qətnamə, 14 oktyabr 1993-cü ildə ATƏT-in Minsk qrupunun nizama salmaya dair vaxt cədvəlinə uyğun olaraq dərhal qarşılıqlı və zəruri addımlar atılmasını, o cümlədən ən son işğal edilmiş ərazilərdən çəkilməyi tələb edən 874 saylı qətnamə, nəhayət 11 noyabr 1993-cü ildə Zəngilan rayonu və Horadiz qəsəbəsinin işğalını, mülki əhaliyə edilən hücumları, Azərbaycan Respublikası ərazilərinin bombalanmasını pisləyən, Zəngilan rayonu və Horadiz qəsəbəsindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının ən son işğal olunmuş digər ərazilərindən işğalçı qüvvələrin çıxarılmasını tələb edən 884 saylı qətnamə qəbul etdi. Lakin işğalçı Ermənistan bu qətnamələrin heç birinə əməl etmədi.

12 may 1994-cü ildə Ermənistanla Azərbaycan arasında atəşkəs müqaviləsi imzalansa da Ermənistan tərəfi həmin dövrdən etibarən atəşkəsi pozmaqda davam etdi.

2003-cü ilin yayından isə atəşkəsi pozma halları kəskin şəkildə artdı. Erməni yaraqlıları atəşkəs xətti

boyunca Azərbaycan əsgərləri ilə yanaşı, ətraf ərazilərdə yaşayan dinc əhaliyə də atəş açır, onları da qətlə yetirirdilər.

2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qaldı. Ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı və bu savaş şanlı tariximizə Aprel döyüşləri kimi düşdü. Ordumuzun qələbəsi ilə nəticələnən döyüşlərdə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi.

2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələri Tovuz rayonu istiqamətində silahlı qüvvələrimizin mövqelərini və mülki obyektlərimizi atəşə tutaraq növbəti təxribata əl atdılar. Beş gün davam edən Tovuz döyüşləri heç bir ərazi itkisi olmadan ordumuzun qələbəsi ilə yekunlaşdı və Azərbaycanın uzun illər işğal altında olan torpaqlarının azad olunmasına yol açdı.

Nəhayət, 2020-ci ilin sentyabrın 27-dən etibarən Rəşadətli Azərbaycan Ordusu tərəfindən düşmənin təx-

ribatlarına qarşı əks-hücum əməliyyatlarına başlanıldı və nəticə Ali Baş Komandanın dediyi kimi: *"Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!"* oldu. 44 gün davam edən müharibənin sonunda Azərbaycanın 30 ilə yaxın işğal altında olan torpaqları azad edildi və nəhayət ki, Zəngəzur dəhlizi məsələsi gündəmə gəldi. Qarabağla bağlı danışıqlar masasında heç zaman yer almayan bu məsələ 2020-ci ilin 10 noyabrında Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış üçtərəfli atəşkəs razılaşmasının bəndlərindən birinə çevrildi. Hazırda Qarabağda möhkəmlənməyimizlə yanaşı, Zəngəzur dəhlizinin açılması, Naxçıvanla birbaşa əlaqəmizin yaranması, türk dünyasının quru sərhədlərinin birləşməsi siyasi gündəliyin əsas motivi olmaqdadır. Son vaxtlarda, demək olar ki, bütün çıxışlarında Zəngəzur məsələsinə toxunan Dövlət başçısı Cənab İlham Əliyev bununla bağlı fikirlərini aydın şəkildə bildirir: "...Zəngəzur 1920-ci ildə, 101 il bundan öncə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məx-

sus idi...". Göründüyü kimi, Zəngəzur bölgəsinin tarixi torpaqlarımızın bir hissəsi kimi vurğulanması ilk dəfə siyasi müstəviyə qaldırıldı və birinci rəsmi şəxs tərəfindən qətiyyətlə ifadə edilməyə başlandı. Bu isə əzəli torpaqlarımıza qayıdışımızın başlanğıcı olmaqla yanaşı, tarixi nailiyyətimizdir və qürur hissi ilə deyə bilərik ki, XX əsrin əvvəllərində N. Nərimanov tərəfindən erməni millətçilərinə qarşı başladılan mücadilə XXI yüzilliyin əvvəllərində Ümummili lider Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev tərəfindən qəti qələbə ilə sona çatdırıldı.

## ONLARA ÖLÜ DEMƏYİN

Şəhidlər Allah-Təalanın dərgahında İlahi ruzi ilə mükafatlanan ən sevimli bəndələrdir. Uca Rəbbimiz onların sahib olduğu yüksək məqamı bildirmək üçün "Bəqərə" surəsinin 154-cü ayəsində belə buyurur:

**"Allah yolunda öldürülənlərə** (şəhid olanlara) **"ölü" deməyin. Əksinə, onlar** (Allah dərgahında) **diridirlər, lakin siz bunu dərk etmirsiniz"**.

Digər bir ayədə – "Ali-İmran" surəsinin 169-cu ayəsində isə buyurulur ki:

**"Allah yolunda öldürülənləri** (şəhid olanları) **heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi** (cənnət ruzisi) **əta olunur"**.

Mübarək ayələrdən məlum olur ki, şəhadətləri ilə Cənnətı qazanan şəhidlər Qadir Allahın bəxş etdiyi ömrü uğrunda can verdiyi xalqına, millətinə qurban edən ölümsüz qəhrəmanlardır. Onlara ölü demək, Quran baxımından düzgün deyildir.

Zaman ötür, illər dəyişir və tarixə dönür. Tarixdə isə bəzi hadisələr yaddan çıxır, unudulur. Lakin elə hadisələr var ki, heç vaxt unudulmur, nəsillər bir-birini əvəz etdikcə daha çox xatırlanır, insanların yolunu işıqlı zirvəyə doğru aparır. Bu zirvə müqəddəs, şərəfli, imanın və vətənpərvərliyin ən ali məqamı olan şəhidlikdir.



Bəli, şəhidlər Uca Yaradanın, ana vətənin və doğma xalqın yolunda şüurlu surətdə canlarını fəda edən insanlardır. Onlar yüksək əxlaqi keyfiyyətlərə malik olmaqla, qəlblərində torpaq, vətən və Allah sevgisi daşımaqla Allahın rizasını qazanaraq şəhadət mərtəbəsinə ucalır, izzət və ehtiram sahibi olurlar. Uca Rəbbimiz "Ali-İmran" surəsinin 157-ci ayəsində buyurur ki:

**"Əgər Allah yolunda öldürülər və ya ölərsinizsə, Allahın sizi bağışlaması və rəhm etməsi şübhəsiz ki,** (kafirlərin dünyada) **topladıqları şeylərdən** (sərvətdən) **daha xeyirlidir"**.

Vətən müharibəsi şəhidləri də bu cür hüquqa, belə taleyə sahib olan kəslərdir. Onlar xalqımızın çoxəsrlik milli-mənəvi dəyərlər sisteminin tərkib hissəsinə çevrilərək ən əzizimiz, ən yaxınımız, ən doğmamız oldular. Bizi bu doğmalıqda birləşdirən amil, sözsüz ki, ana vətənimiz oldu. Öyrəndik ki, din, namus, şərəf və azadlıq kimi dəyərlər məhz vətən sayəsində qoruna bilər, vətəni sevmək imandan doğan fitri nemətdir və bunu müqəddəslərdən gələn mübarək kəlamlar da təsdiq etməkdədir.

Digər tərəfdən, mömin şəxs özündə bəyənilən xüsusiyyətləri yaratmaq və inkişaf etdirmək istədiyinə görə vətəni sevmək onun insani, mənəvi-əxlaqi keyfiyyətlərindən sayılır və bu mənada vətəni sevməyi Allaha imanın əlamətlərindən hesab etmək olar.

Həqiqətən də, insanın malik olduğu bütün yaxşı xüsusiyyətlərinin mənbəyi Allaha olan imandır və fikrimizcə bu iman vətən azad olanda daha rahat yaşana bilər. Deməli, üzərində iman və əxlaq əsaslarının yaşandığı vətəni müdafiə etmək dinimiz baxımından fəzilətli və son dərəcə yüksək dəyərə malik əməldir. Elə İkinci Vətən müharibəsində verdiyimiz şəhidlər də bu dəyərə və bu əmələ sahib olan şəxslər oldular. Onlar sübut etdilər ki, haqq savaşının təşnəsidirlər, vətən torpaqlarını azad etməyə, Azərbaycanımızın milli himnində yer alan *"Səndən ötrü can verməyə cümlə hazırız!"* çağırışına – şəhadətə canla-başla hazırdırlar. Bu cür müqəddəs hisslərin, duyğuların mənbəyi isə Həzrət Peyğəmbərin (s) əziz nəvəsi, Kərbəla məktəbinin banisi və şəhidlər sərvəri Həzrət Hüseyn (ə) və o Həzrətə (ə) olan sevgi, məhəbbət idi. Məhz ruhumuzun bir parçası olan Əhli-beyt (ə) sevgisi, Aşura məktəbi və İmam Hüseyn (ə) əzadarlığı xalqımıza şəhidliyi doğmalaşdırdı.

İkinci Vətən müharibəsində hərbçilərimizin şəhid olmaq həvəsi doğmasına qovuşmaq kimi coşqun hal almışdı. Ön cəbhədə sinəsini düşmənə sipər edənlərin arxasında onlara mənəvi dəstəyini əsirgəməyən xalqımız durmuşdu, yaşından, vəzifə və rütbəsindən asılı olmayaraq cəsur döyüşçülərimizi doğma tutaraq dillər əzbəri etmişdi.







İkinci Qarabağ savaşında xalqımıza ilham duyğusu bəxş edən Uca Allah "Nisa" surəsinin 74-cü ayəsində belə buyurur:

**"Elə isə, qoy dünyanı verib əvəzində axirəti satın alanlar Allah yolunda vuruşsunlar. Hər kim Allah yolunda vuruşaraq ölərsə və ya** (düşmənə) **qalib gələrsə, ona böyük mükafat verəcəyik"**.

Cəsur döyüşçülərimiz bu müharibədə hər şeyi geridə buraxıb yalnız irəli getmək, İlahi mükafata sahib olmaq əzmi ilə vuruşurdular. Doğma vətəni mənfur düşmən tapdağından xilas etmək onlar üçün ali məqsəd çevrilmişdi. Onlar bu yolda qazi olmağı, hətta şəhadət mərtəbəsinə ucalmağı belə, gözə almışdılar.

Həzrət Peyğəmbər (s) buyurub ki:

***"Ən şərəfli ölüm – şəhadətdir"***.

Allah Rəsulunun (s) dəyər verdiyi şəhadətin fəziləti barəsində çox yazmaq olar. Lakin nə qədər yazılsa da, məsumlardan (ə) başqa bu İlahi məqamı sözlə təsvir etmək çətin məsələdir. Odur ki, yorucu olmasın deyə biz də burada onlardan bir neçəsini qeyd etmək istərdik:

– şəhadət günahların bağışlanmasına səbəb olar, bu mərtəbəyə ucalan şəhidlər qəbir sorğu-sualından azad olarlar;

– şəhidlər behiştə daxil olan ilk insanlardır, hamı onlara qibtə edər, onlar behiştdə hurilərlə yoldaşlıq edərlər;

– şəhidlərin şəfaət haqqı vardır, öz yaxınlarından yetmiş nəfərə şəfaətçi olarlar;

– şəhidlər hədəfləri müqəddəs olan, haqq və həqiqət yolunda addım atan və böyük ruha malik olan mübarək şəxslərdir.

Şəhadət arzusunda olan əsgər və zabitlərimizin İkinci Qarabağ savaşında bir-birinə qarşı diqqət və ehtiramı Rəhman və Rəhim Allahın böyük lütfündən xəbər verirdi. Yaralı döyüşçü yoldaşlarına qardaş gözü ilə baxan hərbçilərimiz onları xilas etmək naminə ölümün pəncəsinə atılmaqdan və şəhid olmaqdan çəkinmirdilər, çünki şəhadəti ürəkdən arzulayırdılar. Şəhidlik məqamına yetənlərin də çöhrəsi ətrafa ay parçası kimi nur saçırdı.

Xəstəxana və hospitallardakı yaralı hərbçilərimiz müalicələrini yarıda buraxmağa, döyüş yoldaşlarının yanına qayıtmağa, şəhid olanların qisasını almağa can atırdılar. Yaşından və mövqeyindən asılı olmayaraq hər bir azərbaycanlı Vətən savaşında iştirak etməyə və ya iştirak edənlərə yardımçı olmağa çalışırdı. Bir sözlə, bütün Azərbaycan öz Ordusunun yanındaydı.

Allah-Təala Qurani-Kərimin "Ənfal" surəsinin 65-ci ayəsində Həzrət Peyğəmbərə (s) xitabən belə buyurur:

**"Ya Peyğəmbər! Mömінləri döyüşə həvəsləndir** (təşviq et)**. İçərinizdə iyirmi səbrli kişi olsa, iki yüz kafirə, yüz səbrli kişi olsa, min kafirə qalib gələr. Çünki onlar** (həqiqətən, Allahın möminlərə olan köməyini) **anlamayan bir tayfadır!"**





Mübarək ayədə keçənlər eyni ilə Qarabağ müharibəsində də öz əksini tapdı. Arxasında böyük imperiyalar duran işğalçı Ermənistanın təcavüzkar ordusu 44 gün ərzində Müzəffər Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin qarşısında tab gətirməyərək darmadağın oldu.

İşğalçı Ermənistanın cinayətkar rəhbərliyi Ali Baş Komandanımızın, Müzəffər Ordumuzun, qəhrəman qazilərimizin və müqəddəs şəhidlərimizin sayəsində torpaqlarımızın öz tarixi azadlığına qovuşmasının həqiqi səbəbinin Allah tərəfindən bəxş edilən Zəfər olduğunu anlaya bilmədi.

Düşməni sarsıdan və Allahdan gələn zəfərimizə görə Uca Yaradana sonsuz şükürlər olsun!

Allah bütün şəhidlərimizə rəhmət etsin!

**AĞASƏİD YAQUBOV**

# ALLAHIN BƏXŞ ETDİYİ ZƏFƏR

Çapa imzalanmışdır: 02.11.2021.
Ölçü: 60x90 1/16. Çap vərəqi:3,25. Sifariş:099/21. Say: 2000 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ
Bakı, Az1122, H.Zərdabi 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

*Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə!*

*Əsl həqiqətdə onlar diridirlər.*

*Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur.*

*Qurani-Kərim. Ali-İmran surəsi, 169-cu ayə*



*Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşı, islamşünas Ağasəid Yaqubovun qələmə aldığı "Allahın bəxş etdiyi zəfər" adlı kiçik əsərində xalqımızın İkinci Vətən müharibəsi kimi böyük savaşından bəhs etmiş, bu haqq savaşda qazandığımız qələbəni İlahi dərgahla bağlayan məqamlara aydınlıq gətirməyə çalışmışdır. Hesab edirik ki, əsər yaşından asılı olmayaraq hər bir oxucu üçün sevimli kitabçaya çevriləcəkdir.*